# DIL–DAXILI QÜVVƏNIN NÜMAYƏNDƏSI

<"xml encoding="UTF-8?>

SƏKSƏNİNCİ HEKAYƏT

DIL–DAXILI QÜVVƏNIN NÜMAYƏNDƏSI

Co”dət ibni Hubəyrə Məxzuni Əli (əleyhis-salam)-ın bacısı oğlu, onun da anası Ümmü Hani idi. İmam Əli (əleyhissalam) hadisə-lərdən birində ondan məsciddə camaat qarşı-sında çıxış etməsini istədi. O, minbərə qalxdı, amma danışa bilmədi və sakit dayandıqdan sonra aşağı endi. Bu zaman İmam minbərə çıxıb edib buyurdu:

“Agah olun, dil insan bədəninin ətindən olan bir parçadır. Əgər bir insanın hazırlığı olmazsa, dili söz deməyə qadir deyildir və əgər hazırlığı olub azad olsa nitq ona möhlət verməz (ürəyi istəyəcək ki, söz danışsın). Biz söz hakimləriyik və onun damar və kökləri bizdə möhkəmlənibdir.”

Beləliklə İmam (əleyhissalam) demək istəyir ki, dil insan ürəyinin və batininin nümayəndəsidir. Əgər insan düzgün çıxış etmək istəsə, gərək əvvəlcə canını və ruhunu elm, mərifət və əməl ilə qüvvətləndirsin. Digər tərəfdən isə hazırlıqdan sonra gərək dilini qorusun çünki, dilin öz başına buraxılması böyük bir xətadır.

Sonra Həzrət nübüvvət sülaləsinin söz danışmaqda qüvvətli olmalarına və onların vücudlarının .dərinliklərində kök atmasına, eləcə də onun bu ailəyə məxsus olmasına işarə etdi